**BMT rəsmisi: Bakı Forumu vasitəsilə iqlim dəyişikliyi ilə mübarizədə problemin həlli yollarını tapa bilərik**

Ombudsmanların Beynəlxalq Bakı Forumunda birlikdə müzakirələr apararaq iqlim dəyişikliyi ilə mübarizədə problemdən həll yollarını tapa bilərik.

AZƏRTAC xəbər verir ki, bu sözləri oktyabrın 2-də keçirilən Ombudsmanların Beynəlxalq Bakı Forumunda Birləşmiş Millətlər Təşkilatının (BMT) İnkişaf Proqramının (UNDP) Azərbaycandakı rezident nümayəndəsinin səlahiyyətlərini icra edən rezident əlaqələndirici Alessandra Roccasalvo səsləndirib.

BMT rəsmisi iqlim dəyişikliyi ilə mübarizədə qlobal əməkdaşlığın əhəmiyyətini qeyd edib.

Gənclərin iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirak etdiklərini vurğulayan A.Roccasalvo deyib: "Su qıtlığı o qədər böyük problemdir ki, gələcək nəsillər bunun əziyyətini çəkəcəklər. Onlar köhnə nəslin gördüyü işləri görə bilməyəcəklər. Azərbaycan COP29-a ev sahibliyi edəcək. Bu, asan iş deyil. Bu tədbirdə iştirak edəcəyim üçün qürur duyuram".

**AZƏRTAC
2024, 2 oktyabr**